

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 155 (23.567)

16 sentyabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciət edib. Ölkə başçısı müəllim, tələbə və şagirdləri yeni dərs ili münasibətilə təbrik edib, bu il yeni dərs ilinin pandemiya ilə əlaqədar yeni formatda təşkil olunacağını, əsas məqsədin Azərbaycan xalqını bu bəladan qorumaq olduğunu bildirib. Vurğulanıb ki, Azərbaycan pandemiyanın ilk günlərindən çox operativ, çevik addımlar ataraq xalqımızı böyük bəladan qurtara bilib, ölkəmiz hazırda postpandemiya dövrünə hazırlanır.

Dövlətimizin başçısı cəmi bir il ərzində ölkədə 150-yə yaxın məktəb tikildiyini və əsaslı təmir edildiyini, son 17 il ərzində, bütövlükdə, Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir olunduğunu, hazırda 4500-ə qədər məktəb olduğunu, onların 3700-nün tam yeni görkəm aldığını və yenidən inşa edildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, cəmi bir il ərzində üç ali məktəbin 70 min kvadratmetr sahəsi olan yeni korpusları tikilib.

Prezident İlham Əliyev müraciətdə Azərbaycanda büdcə xərcləri arasında təhsil sahəsinə ayrılan xərclərin ikinci yerdə olmasından, gənclərin bilikli, savadlı yetişməsinin ölkəmizin gələcəyini şərtləndirməsindən, eyni zamanda onların vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər – ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalarının zəruriliyindən bəhs edib. Ölkə başçısı qeyd edib ki, bizim uşaqlarımız, gənclərimiz bilik, savad əldə edərək gələcəkdə Vətənə dəyərli vətəndaşlar kimi xidmət edəcək və ümumi inkişafımıza öz töhfələrini verəcəklər.



## Naxçıvanda Bilik Günü yeni məktəb binasının açılışı ilə qeyd olunub

### Culfa rayonunun Camaldın kəndində yeni sosial obyektlər istifadəyə verilib

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi sürətli sosial-iqtisadi inkişaf strategiyası yaranmasının 90 illiyi tamam olan Culfa rayonunu da əhatə etmişdir. Bu il rayonun Camaldın kəndi abadlaşan kəndlər sırasına qoşulmuşdur. Aparılan kompleks quruculuq işləri, yaradılan müasir infrastruktur, iş və xidmət şəraiti sakinlərin rahat yaşayışına səbəb olmuşdur.

## Bilik Günündə Camaldın kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir





Sentyabrın 15-də – Bilik Günündə Camaldın kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın bütün ümumtəhsil, ali, orta ixtisas və peşə məktəblərinin şagird və tələbələrini, pedaqoji kollektivləri, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarını yeni tədris ilinin başlanması, Camaldın kənd tam orta məktəbinin kollektivini isə həm də yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Hər bir cəmiyyətin tərəqqisinin başlıca amili təhsildir. Bu, ölkələrin inkişafına münasibətdə də belədir. O ölkə irəli gedir, inkişaf edir ki, orada təhsil dövlət səviyyəsində qayğı ilə əhatə olunur. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində görülən işlər gələcəyimiz üçün etibarlı əsaslar yaradır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Hər bir gənc üçün istədiyi, arzu etdiyi sənət üzrə, ixtisas üzrə təhsil almaq böyük xoşbəxtlikdir”.*** Bu gün ulu öndərin müəllifi olduğu və ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən təhsil strategiyası ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında gənclər üçün geniş təhsil imkanları açıb. Ən son texnologiyaların tədrisdə tətbiqi, bütün təhsil pillələri üzrə müasir infrastrukturun yaradılması ixtisaslı kadr hazırlığı sahəsində yeni mərhələnin əsasını qoyub. Gənc nəslin fiziki və zehni inkişafı, öz bilik və bacarıqlarını artırmaları üçün bütün imkanlar vardır.



“Muxtar respublikanın ən ucqar kəndində də, şəhərində də gənclərimiz eyni şəraiti olan məktəblərdə təhsil alırlar. Hər bir gənc üçün təhsil əlçatandır. Əsl vətəndaş yetişdirməyin, gələcəyimiz üçün əsaslı təminat yaratmağın yolu da məhz bundan ibarətdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, müstəqillik, sabitlik və inkişaf şəraitində yaşamaq böyük xoşbəxtlikdir. Bütün bunları qorumağın yolu isə yaxşı təhsil almaqdan, əsl vətəndaş kimi yetişməkdən keçir. Məktəblərdə yaradılan şəraitdən, yeni texnologiyalardan lazımi səviyyədə istifadə olunmalı, hər bir gənc qabiliyyətinə və bacarığına uyğun peşəyə yönəldilməli, müəllim-şagird münasibətləri qarşılıqlı tələbkarlıq və hörmət əsasında qurulmalıdır. Müəllimlər ölkəmizin gələcəyini hazırlamaq kimi mühüm bir vəzifənin məsuliyyətini, gənclərimiz isə ölkəmizin gələcək təminatçıları olduqlarını bilməlidirlər. Təhsil sağlam cəmiyyət formalaşdırır. Ona görə də dünyada hansı proseslərin baş verməsindən asılı olmayaraq, mütləq təhsil inkişaf etdirilməlidir. Təhsilin əsas məqsədi isə gənclərə düzgün qərarlar qəbul etmək sənətini öyrətmək olmalıdır. Düzgün qərarlar qəbul etməklə insanlar şəxsiyyətə, ölkələr isə qüdrətli dövlətə çevrilir.

Ali Məclisin Sədri bu yolda bütün təhsil sistemində çalışanlara, tələbə, kursant və şagirdlərə uğurlar arzulamış, bir daha Bilik bayramlarını təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, 2019-2020-ci tədris ilində muxtar respublikada 10 məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda 6 məktəb binasının, Culfa rayon məktəbdənkənar tərbiyə müəssisələri və Culfa Rayon Təhsil Şöbəsi üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. 2020-2021-ci tədris ilində muxtar respublikanın 211 ümumtəhsil məktəbində məktəbəhazırlıq qruplarında 3584 uşaq, birinci siniflərdə 5224 şagird olmaqla, ümumilikdə, 53 minə yaxın şagird təhsil alacaq, onların təhsili ilə 7729 müəllim məşğul olacaq. Ümumtəhsil məktəblərinin infrastrukturunun yenilənməsi, təhsil müəssisələrində 650-dən yuxarı elektron lövhənin, 5700-dən artıq kompüterin quraşdırılması, 3 milyona yaxın yeni dərslik və metodik vəsaitin, 600 mindən çox bədii ədəbiyyatın olması cari tədris ilinin yüksək səviyyədə təşkilinə geniş imkanlar yaradır. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublikanın təhsil işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Camaldın kənd tam orta məktəbinin müəllimi Şəbnəm Abdullayeva demişdir ki, muxtar respublikada təhsilin yüksək səviyyədə himayə edilməsinin nəticəsidir ki, ardıcıl olaraq yeni təhsil ocaqları istifadəyə verilir. Bilik Günündə Camaldın kəndinin əhalisinə hədiyyə olunan

Ardı 2-ci səhifədə





məktəb binası da yeni quruculuq ünvanlarından biri, məktəb kollektivinə ən gözəl hədiyyədir. Muxtar respublikada müəllim əməyinə həmişə yüksək qiymət verilir. Yaradılan şəraitin nəticəsidir ki, gənclər müsabiqə yolu ilə işlə təmin olunur. Mən özüm Naxçıvan şəhərində yaşayıram. Müəllimlərin işə qəbulu müsabiqəsində yüksək nəticə göstərərək artıq ikinci ildir ki, Camaldın kənd tam orta məktəbində ingilis dili fənnini tədris edirəm. Məktəbimizdə yaradılan şərait heç də şəhər məktəblərindən geri qalmır. Şəbnəm Abdullayeva göstərilən hərtərəfli qayğıya görə müəllim və şagird kollektivi adından minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 252 şagird yerlik məktəbdə 16 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı yerləşir. Məktəbin kitabxana fondunda 1600-ü dərslik və 2555-i bədii ədəbiyyat olmaqla, 4155 kitab vardır.

Müasir dövrdə yeni texnologiyaların tədrisdə tətbiqi hər bir ölkənin intellektual inkişafının vacib göstəricilərindən sayılır. Camaldın kənd tam orta məktəbində də internetə çıxışı olan 22 kompüter və 3 elektron lövhə quraşdırılmışdır.

Ali Məclisin Sədri elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə ümumtəhsil məktəbləri arasında keçilən interaktiv dərsi izləmişdir. 200-dən yuxarı təhsil müəssisəsinin qoşulduğu interaktiv dərsdə şagirdlərə ümummilli liderimiz Heydər Əliyevin həyatı, siyasi və dövlətçilik fəaliyyəti barədə ətraflı məlumat verilmişdir.

Kimya-biologiya və fizika laboratoriyalarına baxış zamanı qeyd olunmuşdur ki, məktəbdə dəqiq elmlərin tədrisinə xüsusi diqqət yetirilir. Müasir tədris-təcrübə avadanlıqları ilə təchiz olunan laboratoriyalarda yaradılan şərait şagirdlərin keçilən dərsləri daha yaxşı mənimsəməsinə kömək edəcəkdir. Şahmat sinfinin bütün lazımi avadanlıqlarla təchiz olunması isə dərslərin daha yaxşı tədrisinə imkan yaradır.

Ali Məclisin Sədri birinci sinifdə təhsil alan şagirdlərin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu il Camaldın kənd tam orta məktəbinə 19 şagird qəbul olunmuşdur.



Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların ilkin hərbi vərdişlərə yiyələnməsi də tədris proqramının tərkib hissəsi kimi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə kənd məktəbində hərbi kabinə yaradılmış, kabinədəki stendlərdə ilkin hərbi biliklər haqqında məlumatlar öz əksini tapmışdır. Məktəbin idman zalı da hər cür şəraitlə təchiz olunmuşdur.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, Camaldın kənd tam orta məktəbinin nəticələri uğurlu olmuşdur. Son 5 ildə məzunların 63 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Muxtar respublikada müəllim əməyinə verilən qiymətin nəticəsidir ki, məktəbin müəllimlərindən 1-i "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür. Məktəbdə yaradılan şərait bundan sonra da təhsilin yüksək səviyyədə təşkilinə, interaktiv və nümunəvi dərslərin keçilməsinə, daha yüksək nəticələrin əldə olunmasına, eləcə də bilikli və vətənpərvər gənclərin yetişdirilməsinə imkan verəcəkdir.

Məktəbin gənc müəllimi Aysel Kərimova minnətdarlıq edərək demişdir: Bu gün Camaldın kəndi də müasir kəndlər sırasına qoşulur. Məktəbimiz yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilir. Ali Məclisin Sədri çıxışlarının birində demişdir ki, ***"Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir".*** Bu səbəbdən də muxtar respublikada təhsil quruculuğuna xüsusi diqqət yetirilir. Təhsil müəssisələrində tədris üçün müasir şərait yaradılır. Buna görə məktəbimizin müəllim və şagirdləri, eləcə də valideynlər adından minnətdarlığımızı bildiririk. Söz veririk ki, yaradılanları qorumaqla yanaşı, həm də əsl vətənpərvər gənclər yetişdirəcəyik.

Ali Məclisin Sədri demişdir: Bu gün istifadəyə verilən məktəb Camaldın kəndinin həyatında xüsusi əhəmiyyətə malikdir. Ona görə ki, kənddə yaşayan hər bir ailənin övladı məktəbdə təhsil alacaqdır. Məktəbdə yeni texnologiyalar qurulmuş, müasir tədrisin tələblərinə uyğun sinif otaqları, lazımi tədris avadanlıqları və kitabxana kollektivin istifadəsinə verilmişdir. Məktəbin pedaqoji kollektivi işini tədrisin tələbləri səviyyəsində qurmuşdur. Təhsil ocağında müəllim tələbkarlığı, şagird çalışqanlığı vardır. Son 5 ildəki nəticələr bunu bir daha təsdiq edir.

Qazanılan uğurlara görə məktəb kollektivinə təşəkkür edən Ali Məclisin Sədri demişdir: Məktəb ümumxalq işi olmalıdır. Təhsil təkcə müəllimlərin üzərinə düşən vəzifə deyil. Hər bir şagirdin, hər bir gəncin hazırlanması ümumxalq, ümumdövlət işidir. Dövlət üzərinə düşən vəzifələri yerinə yetirir. Müasir tədrisin tələblərinə uyğun məktəb binası tikilərək istifadəyə verilir. Pedaqoji



kollektivin qarşısında duran əsas vəzifə isə gələcəyimizi hazırlamaqdır. Məktəbin tam fəaliyyət göstərməsi, uğur qazanması üçün hər cür şəraiti, eləcə də bütün fənlər üzrə müəllim heyəti vardır. Ona görə də məktəbdə tələbkarlıq olmalı, müəllimlər şagirdləri bacarıqlarına uyğun peşələrə yönəltməli, təhsilli və vətənpərvər nəsil yetişdirməlidirlər.

Binanın həyətində bufet və fərdi qazanxana tikilmiş, açıq idman qurğuları qurulmuş, abadlıq işləri aparılmış, yaşıllıq sahəsi salınmışdır.

## Camaldın-Ərəzin kənd avtomobil yolu istifadəyə verilmişdir






Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və magistral yolların salınması sosialyönümlü tədbirlər olmaqla yanaşı, həm də ölkəmizin iqtisadi qüdrətinin mühüm göstəricisidir. Muxtar respublikamızda müasir və təhlükəsiz yol şəbəkələri yaradılır, kənd yollarının yenidən qurulması diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Camaldın-Ərəzin kənd avtomobil yolu yenidən qurulmuşdur.

Sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Camaldın-Ərəzin kənd avtomobil yolunun açılışını etmişdir.

Bildirilmişdir ki, ümumi uzunluğu 12,9 kilometr olan avtomobil yolu yenidən qurulmuş, asfalt örtük salınmışdır. Eyni zamanda 9 kilometrlik kənddaxili yollar da təmir olunaraq qum-çınqıl qatı verilmiş, 262 metr məsafədə sahilbərkitmə işləri aparılmışdır. Yolun üzərində 144 su keçidi qoyulmuş, 1710 metr beton kanal çəkilmiş, 1 körpü təmir edilmişdir.

*Ardı 3-cü səhifədə*

# Camaldın Kənd Mərkəzinin açılışı olub





Sentyabrın 15-də Camaldın Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, mədəniyyət evi, poçt bölməsi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 44 yerlik zal yerləşir. Kitabxana fondunda 10 min 675 kitab vardır. Rabitə evində poçt bölməsinin fəaliyyəti üçün bütün tədbirlər görülmüş, eyni zamanda 320 nömrə tutumlu yeni nəsil ATS quraşdırılmışdır. Kənddə 166 internet istifadəçisi vardır.

Yeni Azərbaycan Partiyası Camaldın kənd ərazi ilk təşkilatının 192 üzvü vardır ki, onlardan da 67-si gənc, 81-i isə qadındır.

Yeni Azərbaycan Partiyası Camaldın ərazi ilk təşkilatının sədri Ayaz Novruzov



minnətdarlıq edərək demişdir: "Tarix sübut etdi ki, Azərbaycan xalqını işıqlı gələcəyə aparan bir yol vardır. Bu da ulu öndər Heydər Əliyevin yoludur. Bizim yeganə amalımız isə ulu öndərimizin ideyalarına sədaqətlə xidmət etməkdir. Bu sədaqətin nəticəsidir ki, göstərilən diqqət və qayğı nəticəsində kəndimiz müasirləşmiş, abad kəndlər sırasına qoşulmuşdur. Bu gün burada yaşamaq, fəaliyyət göstərmək və təhsil almaq üçün hər cür şərait yaradılmışdır. Kəndimizin tarixinə yeni səhifə yazılmışdır. Tarix qurub-yaradanları heç vaxt unutmur. Camaldın kəndinin sakinləri də Qurucu Rəhbəri ilə fəxr edirlər".

Bildirilmişdir ki, kənddə əsas diqqət yetirilən sahələrdən biri də baytarlıq işinin təşkilidir. Xəstəliklərə qarşı vaxtında dərmanların vurulması, dezinfeksiya işlərinin aparılması sağlam heyvandarlıq məhsullarının istehsalına imkan verir.

Binada fərdi istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmışdır.

## Həkim ambulatoriyası əhalinin sağlamlığına xidmət göstərən ünvandır

Bu gün muxtar respublikada səhiyyənin inkişafı diqqət mərkəzindədir. Müasir səhiyyə infrastrukturu və kadr təminatı tibbi xidmətin səviyyəsini xeyli yüksəldib. İnsan amilinə verilən dəyərin ifadəsi olan bu tədbirlər muxtar respublikanın bütün yaşayış məntəqələrini əhatə edib.

Sentyabrın 15-də Camaldın kəndində həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, tibbi xidmətin təşkili ilə maraqlanmışdır.

Bildirilmişdir ki, lazımi tibbi avadanlıqlarla təchiz edilmiş ambulatoriyada 8 otaq – baş həkim, stomatoloq, palata, doğuş, manipulyasiya, peyvənd, qeydiyyat otağı və aptek vardır. Həkim ambulatoriyasında stomatoloji qurğu, elektroterapiya və ultrasəslə, ultrayüksəktezlikli cərəyanla müalicə aparatları, solyuks lampası və digər tibbi avadanlıqlar qoyulmuşdur.

Ali Məclisin Sədri sakinlərin sağlamlığının daim diqqət mərkəzində saxlanılması, həkim briqadalarının cəlb olunması, peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.



## Sakinlərin gündəlik tələbatı xidmət mərkəzində ödəniləcək





Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Camaldın kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində qadın gözəllik salonu, bərbərxana, dərzi, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, eləcə də 2 anbar yerləşir. Burada xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılmış, 6 sakin işlə təmin olunmuşdur.

Mağazada, əsasən, yerli məhsullar satışa çıxarılır. Xüsusilə də kənddəki ailə təsərrüfatlarında istehsal olunan məhsullara daha çox üstünlük verilir.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Camaldın kəndində aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edərək demişdir: Bu gün Camaldın kəndinin həyatında əlamətdar gündür. Ona görə ki, kəndin bütün infrastrukturu yenilənib, Camaldın müasir Azərbaycan kəndinə çevrilib. Bütün bunların hamısı ölkəmizdə Heydər Əliyev yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Bunun bəhrəsini Camaldın kəndində yaşayan əhali də görür. Kənddə maldarlıq, heyvandarlıq, əkinçilik inkişaf etdirilir. Camaldın kəndinin inkişafı bundan sonra da diqqətdə saxlanılacaq, ailə təsərrüfatlarına kreditlər veriləcəkdir. İnkişafın təmin olunmasında əhalinin üzərinə də mühüm vəzifələr düşür. Ona görə də yaradılan şəraitdən düzgün istifadə edilməli, təsərrüfatlar genişləndirilməlidir.

Camaldın kənd sakinləri adından minnətdarlıq edən Yaqub Tağıyev demişdir: "Bu gün kəndimiz muxtar respublikamızın hər yeri kimi abadlaşıb, gözəlləşib. Buna uşaqlı-böyüklü hamımız sevinirik. Yeni tikilən müasir məktəb, kənd mərkəzi, ambulatoriya, xidmət mərkəzi, yenidən qurulan yol böyük qayğının ifadəsidir. İndi Naxçıvan kəndləri yaradılan şəraitlə şəhərdən seçilmir. Kəndimizdə bir neçə il bundan əvvəl su dəyirmanı da tikilib istifadəyə verilib. Bütün bunlar dövlətimizin insan amilinə verdiyi dəyərin ifadəsidir".

*Ardı 4-cü səhifədə*

* * *

Camaldın kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 100 metr yeni fiber-optik kabel, 980 metr yeraltı, 150 metr hava rabitə xətti çəkilmişdir. Həmçinin 790 metr uzunluğunda izolyasiyasız, 4723 metr uzunluğunda izolyasiyalı, 3 min 200 metr yüksəkgərginlikli, 13 min 800 metr aşağıgərginlikli hava elektrik xətləri çəkilmiş, 3 transformator yarımstansiyası əsaslı təmir edilmişdir. Bundan başqa, 4581 metr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Camaldın-Ərəzin avtomobil yolunun genişləndirilməsi ilə əlaqədar içməli su xəttinin 400 metrlik hissəsinin yeri dəyişdirilmiş, 350 metr boru yenisi ilə əvəz olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrinin birgə uçuşları təşkil olunub

Sentyabrın 15-də Bakının Qafqaz-İslam Ordusu tərəfindən erməni-bolşevik birləşmələrindən azad edilməsinin 102-ci ildönümü münasibətilə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrinin Naxçıvan şəhəri üzərində birgə uçuşları təşkil olunub. Bu yaxınlarda birinci mərhələsi keçirilən “Sarsılmaz qardaşlıq – 2020” Azərbaycan-Türkiyə birgə təlimi və təşkil olunan uçuşlar Azərbaycan və Türkiyə qardaşlığının, hərbi birliyinin nümunəsidir.





Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Türkiyə Silahlı Qüvvələrinin hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi albay Mustafa Günhan, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını, Türk şəhidləri abidəsini və “Ana fəryadı” xatirə heykəlini ziyarət ediblər.

Helikopterlərin keçidi ilə Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları nümayiş etdirilib. Bu zəfər bayramında ümummilli liderimiz Heydər Əliyevin ***“Bir millət, iki dövlət”*** dahi kəlamının fəlsəfəsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz və əbədi olduğunu göstərir.

**Kənan CƏLİLOV**

## Bilik Günü qeyd edilib



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində 2020-2021-ci tədris ilinin başlanması münasibətilə tədbir keçirilib. Məktəbin rəisi, polis polkovniki Kamil Məmmədəliyev Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərova raport verdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Tədbirdə çıxış edən Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov yeni tədris ilinin başlanması münasibətilə pedaqoji kollektivi təbrik edərək uğurlar arzulayıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında ölkəmizin ərazi bütövlüyünə, təhlükəsizliyinə, xalqın və dövlətin milli maraqlarının daxili və xarici təhdidlərdən qorunmasına yönəlmiş və ümummilli lider Heydər Əliyevin ideyalarına söykənən uğurlu idarəetmə sistemi dövlətimizin möhkəmlənməsinə, muxtar respublika əhalisinin rahat və təhlükəsiz şəraitdə yaşamasına hesablanılıb.

Vurğulanıb ki, muxtar respublikada hər il yeni məktəb binalarının tikilərək istifadəyə verilməsi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi təhsilin bütün pillələrinin inkişafını gündən-günə sürətləndirir. Bu müstəvidə həyata keçirilən irimiqyaslı və gələcək perspektivlərə hesablanmış uğurlu layihələrin davamı olaraq daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi məqsədilə Orta İxtisas Polis Məktəbinin yaradılması doğma yurdumuzun təhlükəsizliyi, ictimai asayişin təmin edilməsi və gənclərdə dövlətçiliyə xidmət fəlsəfəsinin formalaşması məqsədi daşıyır.

Nazir diqqətə çatdırıb ki, ilk tədris ilində 150, cari tədris ilində isə 200 nəfərdən artıq gənc məktəbə qəbul üçün müraciət edib. Namizədlər arasından seçilərək kursant sıralarına daxil olmaları həmin gənclərin dövlətçiliyə xidmət üçün yolunu açmaqla yanaşı, onların üzərinə böyük məsuliyyət qoyur.

Tədbirdə məktəbin rəisi, polis polkovniki Kamil Məmmədəliyev, Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov, kursant Ruslan Məmmədov çıxış edərək məktəbdə yaradılmış yüksək tədris şəraiti üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Naxçıvan Dövlət Universitetində Bilik Günü münasibətilə keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev təhsil siyasətinin Azərbaycanda, o cümlədən muxtar respublikada uğurlu icrasından danışıb, yeni tədris ilinə hazırlıqla bağlı ətraflı məlumat verilib.

Ənənəvi tədris üsulları ilə bərabər, LMS (Learning Management System – Öyrənmənin idarəolunması sistemi)-in tətbiqindən də danışan rektor vurğulayıb ki, 2020-2021-ci tədris ilində bakalavr səviyyəsi üzrə 63, ixtisas üzrə 1200 nəfər, magistratura səviyyəsi istiqamətində isə 77 ixtisaslaşma üzrə 248 tələbə qəbul planı təsdiq



olunub. Bildirilib ki, Naxçıvan ali təhsil müəssisələri içərisində ilk dəfə tədrisi ingilis dilində olacaq İqtisadiyyat ixtisası üçün 15 qəbul yeri nəzərdə tutulub.

Qeyd edilib ki, bu tədris ilində 273 əcnəbi tələbə Naxçıvan Dövlət Universitetini seçib. Rektor müəllim və tələbələri yeni tədris ilinin başlanması münasibətilə təbrik edib.

* * *



“Naxçıvan” Universitetində keçirilən tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq Azərbaycanda təhsilin inkişaf strategiyasından, mövcud pandemiya ilə əlaqədar olaraq dərslərin keçilməsinin yeni qaydalarından danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylunun və Xarici dillər fakültəsinin dekanı Yasin Babazadənin çıxışları dinlənilib.

Bildirilib ki, 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 10 kafedra, 6 şöbə var. 2020-2021-ci tədris ilində burada 1300-dən artıq tələbə təhsil alacaq, 20 bakalavr, 9 magistr ixtisası üzrə mütəxəssis hazırlığı aparılacaq. Universitetdə təhsilin keyfiyyəti yüksəldilir, ixtisas fənləri üzrə elmi dərəcəsi olan müəllimlərə üstünlük verilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

* * *



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbirdə institutun rektoru Azad Novruzov çıxış edərək bildirib ki, 2020-2021-ci tədris ilindən institutda bakalavriat və magistratura səviyyələrində yeni ixtisaslara qəbul elan edilib. Bu tədris ilində bakalavriat səviyyəsi üzrə 16, magistratura səviyyəsi üzrə 4, doktorantura səviyyəsi üzrə 5 ixtisasda kadr hazırlığı aparılacaqdır. İnstitutda magistr səviyyəsi üzrə qəbulun birinci mərhələsi başa çatıb. İlkin olaraq qəbul faizi 95 faiz olub, 85 faiz (41 nəfər) qeydiyyatdan keçib. Bakalavriat səviyyəsi üzrə isə qəbul planı 430, doktorantura üzrə isə 16 nəfərdir.

Hazırda institutda birinci kurslar istisna olmaqla, 945 bakalavr, 25 magistr, 3 doktorant təhsil alır. Builki tələbə sayının 1500-ə yaxın olması proqnozlaşdırılır. Tədris qruplarının sayı bakalavriat səviyyəsində 71, magistratura səviyyəsində 7 olacaqdır.

Tədbirdə prorektor Çapay Quliyev və Tədris şöbəsinin müdiri Əhruz Mahmudova çıxış ediblər.

* * *

15 Sentyabr – Bilik Günü münasibətilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində də tədbir təşkil olunub. Tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazir Nicat Babayev çıxış edib.

Valideynlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbdə Bilik Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.*



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan abituriyentlərin sayı hər il artır. Bu baxımdan 17 nömrəli tam orta məktəbin də uğurları az deyil. Təhsil ocağının builki məzunlarından 1-i “Qızıl” nişana, digəri fərqlənmə diplomuna layiq görülüb. 4 məzun isə 500-700 intervalında bal toplayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mükafatlandırılıb.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov çıxışında bildirib ki, bu il Naxçıvan şəhər ümumtəhsil məktəblərini bitirən məzunlardan 68-i 500-700 intervalında bal toplayıb. Onlardan 4-ü “Qızıl” nişan, 4-ü “Gümüş” nişan, 11-i isə fərqlənmə attestatına layiq görülüb.

Qeyd olunub ki, yeni tədris ilində Naxçıvan şəhər ümumtəhsil məktəblərinin I siniflərində 1266, XI siniflərində isə 617 şagird təhsil alacaq. 2020-2021-ci tədris ilində 11690 şagirdin təlim-tərbiyəsi ilə 1197 müəllim məşğul olacaq.

Sonra ilk zəng çalınıb.

**Xəbərlər şöbəsi**


***İtmişdir***

Məmmədov Nicat Ziyafəddin oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 695**